KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# KÜRD DÎPLOMAT

№ 04 (378) 13 - 19 Fevral, Şûbat, sal, 2017
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî

Qiymәti: / Hêjaye: 40 qəpik



Səh. 2

## Prezident İlham Əliyev Bakı Dəmir Yolu Vağzalında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub


Səh. 14

## Премьер-министр Барзани: В Курдистане снижается страх перед будущим


Səh. 11

## Civîna Barzanî û wezîrê berevaniya Brîtanya destpê kir


Səh. 4

## Əhəd Abıyev: "Təklif edirəm, bütün icra başçıları Cocuq Mərcanlıya getsinlər"


Səh. 8

## Ahmet Türk: Devlet adım atarsa biz hazırız


Səh. 13

## ŞER LI CÎYA. Romana Kurdî û Elîyê Evdilrehman



Səh. 6

## Laçın və Bayram

## Daşkəsən Rayon İcra Hakimiyyəti ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirildi
Səh. 4

## Kürdlər və Kürdüstan
Səh. 7

## Malıbəyli və Quşçuların işğalından 25 il ötdü
Səh. 3

## Gulî-Cewar-Axa yê Elî-Begê kîye?
Səh. 9

## 29 yaşın mübarək! Ey vətən oğlu!!!
Səh. 5

## СМИ Турции: Россия предлагает федерализацию Сирии
Səh. 14


Səh. 7

## Millət vəkili Nuru Paşanı sərt tənqid etdi: "Ermənilərі azərbaycanlıların üstünə salan türklər olub"



Səh. 10

## Projeyên Îngilîs li Kurdistanê – 1


Səh. 15

## Езидская представительница в парламенте Ирака получила Премию Лантоса


Səh. 16

## Экс-министр Иордании призывает арабов поддержать независимость Курдистана

# Prezident İlham Əliyev Bakı Dəmir Yolu Vağzalında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub

Bakı Dəmir Yolu Vağzalı əsaslı yenidənqurmadan sonra fevralın 10-da istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Dəmir Yolu Vağzalında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

Bakı Dəmir Yolu Vağzalının binası 1884-cü ildə Mavritaniya üslubunda inşa olunub, 1926-cı ildə isə rekonstruksiya edilib. Elə həmin ilin iyununda keçmiş SSRİ məkanında ilk dəfə Azərbaycanda Bakı-Sabunçu dəmir yolu sahəsində elektrik qatarı hərəkətə buraxılıb. 1977-ci ildə dəmir yolunun Bakı sərnişin stansiyasında yeni vağzal binası tikilib. Sərnişinlərə xidmət üçün nəzərdə tutulan və mehmanxanası olan 16 mərtəbəli vağzal binası Cənubi Qafqazda eyni tipdən olan obyektlərin ən böyüyü idi.

Vağzal binasının üslubu və fasadı Bakı üçün ənənəvi tikililərdən fərqlənir. Belə ki, vağzalın eksteryeri qədim Şərq üslubuna xasdır. O dövrdə Şərq üslubunda tikilən bina dəbdəbə və əzəmətin təzahürü sayılırdı. Bu binanın fasadında Şirvanşahlar sarayının bir çox elementlərindən də istifadə olunub.



Uzun illər istismar və baxımsızlıq üzündən bina görkəmini itirdiyi üçün 2015-ci ilin əvvəlində burada əsaslı yenidənqurma işlərinə start verilib. Vağzal binasında milli ornamentlərə uyğun olaraq yenidənqurma həyata keçirilib.

Vağzalın əsas binasının fasadı memarlıq üslubunun saxlanması şərtilə yenidən qurulub, binanın daxilində əsaslı təmir işləri görülüb. Həmçinin bilet satışı kassaları, sərnişin platformaları müasir üslubda əsaslı təmir olunub, eskalatorlar yenisi ilə əvəzlənib. Yük, sərnişin və əlillər üçün liftlər quraşdırılıb. Əsaslı təmir zamanı burada inzibati otaqlar, müasir standartlara cavab verən ticarət və iaşə obyektləri yaradılıb, ana-uşaq otaqları, gözləmə zalı, saxlama kameraları sərnişinlərin istifadəsinə verilib. Binada sərnişinlər pulsuz Wi-Fi sistemindən də istifadə edəcəklər. Əsaslı təmir və yenidənqurma işləri çərçivəsində dördü vağzala, dördü isə şəhərə çıxış üçün müasir səviyyədə 8 tunel də yaradılıb.

Dövlət başçısına və xanımına vağzal binasında yaradılan situasiya mərkəzi barədə də məlumat verildi. Mərkəzdən müşahidə kameraları vasitəsilə vağzal ərazisinə nəzarət olunur.

Vağzal binasının ikinci mərtəbəsində 2 saylı "ASAN kommunal" fəaliyyət göstərir. Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov dövlətimizin başçısına və xanımına mərkəz barədə məlumat verdilər.

"ASAN kommunal" mərkəzlərinin yaradılması Azərbaycan Prezidentinin ötən il imzaladığı Fərmanla Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb. Bu mərkəz qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara, o cümlədən vağzaldan istifadə edən bütün sərnişinlərə xidmət göstərəcək. Burada 3 qurum - "Azərişıq" və "Azərsu" ASC-lər, həmçinin "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 45 növ xidmətin göstərilməsi nəzərdə tutulur. Mərkəzdə "Azərişıq" və "Azərsu" ASC-lərin hər biri üçün 10, "Azəriqaz" İstehsalat Birliyi üçün isə 9 xidmət pəncərəsi yaradılıb. Bank və notariat xidmətlərinin də təşkil edildiyi mərkəzdə 51 əməkdaş, 20 könüllü, ümumilikdə, 71 nəfər işlə təmin olunub. Mərkəzdə könüllülər otağı, konfrans zalı, uşaq əyləncə sahəsi yaradılıb. Onu da deyək ki, bu il yanvarın 15-dən fəaliyyətə başlayan 1 saylı "ASAN kommunal" mərkəzində bu günədək 3200-dən artıq müraciət qeydə alınıb.

Bakı Dəmir Yolu Vağzalının belə yüksək səviyyədə yenidən qurulması, ümumilikdə, ölkəmizdə həyata keçirilən sosial layihələrin uğurla davam etməsini aydın göstərir. Bu layihənin icra olunması həm də Azərbaycan dəmir yollarının inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Dövlət başçısı və xanımı dəmir yolu platformasında müxtəlif istiqamətlərdə hərəkət edən qatarların dayanacaqları və sərnişinlər üçün yaradılan şəraitlə tanış oldular. Vağzalın 7 platforması və 8 yolu da görülən işlər çərçivəsində təmir olunub, platformalarda ikitərəfli oturacaqlar quraşdırılıb. Burada aparılan əsaslı yenidənqurma işləri zamanı rəsmi nümayəndələr zalı da müasir səviyyədə təmir olunub.

Bakı Dəmir Yolu Vağzalında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.

# Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" QSC-nin inzibati binasında yaradılan şəraitlə tanış olub



Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) inzibati binasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov dövlətimizin başçısına və xanımına burada aparılan işlər barədə məlumat verdi.

Bildirildi ki, 1956-cı ildə inşa edilən bu binanın ümumi sahəsi 30 min kvadratmetrdir. Foyedə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin siyasi fəaliyyətləri, həmçinin ölkəmizdə dəmir yolunun inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stend yaradılıb, Ümummilli Liderin büstü qoyulub.

Ümumilikdə Azərbaycanda dəmir yolunun inkişafı ulu öndər Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zamanı əhatə edir. Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycanda dəmir yolları müasir dövrün tələblərinə uyğunlaşdırılıb, onun maddi-texniki bazası möhkəmləndirilib. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində dəmir yolu nəqliyyatında əsaslı dəyişikliklərə, köklü islahatlara və davamlı inkişafa nail olunub.

Binada işçilərin yüksək səviyyədə çalışmaları üçün hərtərəfli şərait var, otaqlar ən müasir mebel və avadanlıqla təchiz olunub. Burada qatarların hərəkətinin onlayn və GPS izlənmə sistemləri tətbiq edilib. Binanın 280 nəfərlik müasir akt zalında bütün imkanlar yaradılıb. İnzibati otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Binada, həmçinin şəhid dəmiryolçuların fotolarından ibarət guşələr də yaradılıb. Burada müasir yeməkxana da işçilərin ixtiyarına verilib.

Qeyd edildi ki, binada ən müasir işıqlandırma sistemi qurulub. Dəmir yolunun fasiləsiz iş rejimini nəzərə alaraq, binanın həyətyanı ərazisində iki transformator və generator quraşdırılıb, su anbarları inşa edilib. Bina mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz olunub. Burada, eyni zamanda, beynəlxalq standartlara cavab verən yanğın təhlükəsizliyi və mühəndis kommunikasiya sistemləri tam şəkildə yenilənib. Ətraf ərazilərdə əsaslı abadlıq-quruculuq və yaşıllaşdırma işləri görülüb.

# Prezident İlham Əliyev Bakıdakı 1 saylı poçt filialında yeni xidmət mərkəzinin açılışında iştirak edib



Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsaslı şəkildə yenidən qurulan 1 saylı poçt filialının yeni xidmət mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər. Rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına yeni xidmət mərkəzi barədə məlumat verdi. Bildirildi ki, nazirliyin qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlər poçt və telekommunikasiya binalarında yaradılan yeni xidmət mərkəzlərində təqdim ediləcək. "Şəbəkə" adlanan ilk xidmət mərkəzi Üzeyir Hacıbəyli 36 ünvanında yerləşən 1 saylı poçt filialında istifadəyə verilib. Sahəsi 500 kvadratmetrdən çox olan mərkəz müasir standartlara uyğun əsaslı təmir olunub. Dövlət başçısının diqqətinə çatdırıldı ki, "Şəbəkə" mərkəzlərində istifadə olunan bütün proqram təminatı yerli mütəxəssislər tərəfindən hazırlanıb və müasir standartlara uyğundur. Mərkəzdə müştərilər xüsusi özünəxidmət terminalından da istifadə edə bilərlər. Burada son texnoloji tələblərə uyğun avadanlıq – müasir lazer printerlər, monoblok kompüterlər, özünəxidmət köşkləri, valyuta mübadiləsi və ödəmə terminalları, bankomatlar, bank sistemində tətbiq olunan ən müasir növbə aparatı, tam yenilənmiş abunə qutuları quraşdırılıb, müasir tələblərə cavab verən çeşidləmə otağı yaradılıb. "Şəbəkə" xidmət mərkəzlərində bütün növ telekommunikasiya və poçt, bank və maliyyə xidmətlərinin təşkili də nəzərdə tutulub. Vətəndaşlar telefon çəkilişi, internetə qoşulma, bütün növ rabitə xidmətlərinin ödənişi, mobil cihazların IMEI qeydiyyatı, elektron hökumət xidmətlərindən yararlanmaq, elektron imza, valyuta mübadiləsi və aviabiletlərin alınması üçün bu mərkəzə müraciət edə bilərlər. Xidmətlərin vahid məkanda cəmlənməsi vətəndaşların vaxt itkisini aradan qaldırmağa və nağdsız ödənişlərə imkan yaradıb.

Dövlət başçısına və xanımına mərkəzdəki e-GovPay ödəmə sistemi barədə də məlumat verildi. Qeyd olundu ki, bu sistem vasitəsilə hazırda kommunal xərclər və digər ödənişlər mümkündür. Yaxın gələcəkdə isə həmin sistem vasitəsilə dövlət rüsumları da ödəniləcək. "Şəbəkə" xidmət mərkəzlərinin yaradılmasında əsas məqsəd əhaliyə mərkəzləşdirilmiş qaydada yüksək standartlara uyğun xidmət göstərməkdir. Burada işçi heyəti üçün treninqlər də keçirilir. İşə 60 nəfərdən çox əməkdaş cəlb olunub. Bildirildi ki, Bakı şəhərində ilkin mərhələdə 10 belə xidmət mərkəzinin açılması nəzərdə tutulur. Hazırda Xəzər, Yasamal və Binəqədi rayonlarında "Şəbəkə" xidmət mərkəzlərinin açılması üçün təmir-tikinti işləri aparılır və yaxın zamanlarda onların istifadəyə verilməsi gözlənilir. Gələcəkdə respublikamızın regionlarında da "Şəbəkə" xidmət mərkəzlərinin istifadəyə verilməsi planlaşdırılır.

Mərkəzdəki "elektron imza" və "elektron hökumət" portalı ilə bağlı həyata keçirilən yeniliklər barədə də ətraflı məlumat verildi. Qeyd olundu ki, müxtəlif ölkələrə səyahətə və istirahətə gedənlər də buradan sərfəli qiymətə aviabiletlər əldə edə bilərlər. Bu mərkəzlərdə vətəndaşlara fasiləsiz olaraq həftənin bütün günlərində səhər saat 9-dan axşam saat 8-dək xidmət göstəriləcək.

Yeni xidmət mərkəzi ilə tanış olan Prezident İlham Əliyev kollektivə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.

# Daşkəsən Rayon İcra Hakimiyyəti ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirildi

İlk partiya təşkilatının keçən dövr ərzindəki fəaliyyəti barədə Malik Ələsgərov hesabat məruzəsi ilə çıxış etmişdir. O, öz çıxışında bu illər ərzində keçirilmiş seçkilərə, rayonda aparılan geniş tikinti, abadlıq və quruculuq işlərindən danışmış, YAP fəallarının rayonda keçirilən bütün mədəni-kütləvi tədbirlərdə aktiv iştirakını vurğulamışdır.

Malik Ələsgərov həmçinin öz çıxışında ilk partiya təşkilatının qarşıda duran vəzifələrinə də toxunmuş, yığıncaq iştirakçılarının hər birini əmin etmişdir ki, bu məsələlər həmişə olduğu kimi ilk partiya təşkilatının üzvləri tərəfindən yüksək səviyyədə həyata keçiriləcək.

Daşkəsən rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev hesabat-seçki yığıncağında həm ilk partiya təşkilatının, həm də son illərdə rayonda görülən işlərlə bağlı geniş məzmunlu çıxış edərək bildirmişdir ki, ölkəmizin hər yerində geniş vüsət alan quruculuq və abadlıq işləri Daşkəsən rayonunun timsalında aydın görünür.

17 oktyabr 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Mehriban xanım Əliyevanın Daşkəsənə tarixi səfərini daşkəsənlilər bu gün də sevinc hissi ilə xatırlayırlar. Səfər çərçivəsində cənab Prezident şəhərin mərkəzi meydanında ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər güllər qoymuş, yenidən qurulmuş Heydər Əliyev Mərkəzində olmuş, Daşkəsən rayon İcra Hakimiyyətinin yeni tikilmiş inzibati binasının, yeni avtovağzal kompleksinin, Gənclərin təlim və istirahət mərkəzinin açılışlarında iştirak etmişdir.

Daşkəsən Rayon İcra hakimiyyətinin Başçısı Əhəd Abıyev daha sonra qeyd etmişdir ki, ümumiyyətlə, son illər rayonda mühüm layihələr həyata keçirilib. Rayon Mərkəzi Xəstəxanası, Statistika idarəsi, qəzalı vəziyyətdə olan yaşayış evlərinin sakinləri üçün yaşayış binaları, 7 müasir məktəb binası tikilmiş, 3 uşaq bağçası əsaslı təmir edilərək istifadəyə verilmiş, yaşayış binalarında bərpa-gücləndirmə işləri aparılmışdır. Daşkəsən şəhər və Alunitdağ qəsəbəsindəki çoxmərtəbəli yaşayış və inzibati binalarının hamısının dam örtüyü yeni dəmir lövhələrlə əvəzlənmişdir. Daşkəsən şəhərində və Alunitdağ qəsəbəsində 35/6 kv-luq elektrik yarımstansiyası tikilib istifadəyə verilmişdir. Qabaqtəpə kəndində əhalinin gediş-gəlişinin yaxşılaşdırılması məqsədilə uzun illərdən bəri problemli məsələ kimi qalmış 2 ədəd müasir körpü tikilərək sakinlərin istifadəsinə verilmişdir.

Bu gün Daşkəsən şəhərinin su-kanalizasiya sistemi müasir vəziyyətdə yenidən qurulur və bu sahədə işlər davam etdirilir. Bu işlər başa çatdıqdan sonra şəhər sakinləri 24 saat ekoloji təmiz içməli su ilə təmin olunacaqlar.

İndi Daşkəsən inkişaf və tərəqqi dövrünü yaşayır.

"Yeni Daşkəsən" layihəsi ray-



onun yüksəlişindən və cənab Prezidentin yaratdığı inkişaf siyasətindən qaynaqlanır. Rayonun bütün daxili yollarının, körpülərin əsaslı təmiri üzrə Daşkəsən rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyevin rəhbərliyi ilə Nazirlər Kabinetinə kompleks layihə təklifləri işlənib təqdim olunub. 3300 nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən 25 km uzunluğunda Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi üzrə müvafiq sənədlər aidiyyəti üzrə qurumlara təqdim edilib və bu layihənin həyata keçirilməsi "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na daxil edilib.

"Yeni Daşkəsən" layihəsi bütün rayon ictimaiyyətinin dərin razılığı ilə qarşılanır, bəyənilir və dəstəklənir.

Hər bir daşkəsənli əldə edilən nailiyyətlərə və görülən işlərə görə ölkə Prezidenti cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirir.

İnkişaf etməkdə olan rayonumuzun daha da abadlaşdırılması, həyata keçirilən quruculuq işlərinin uğurla davam etdirilməsi üçün qarşıda mühüm vəzifələr durur.

Bildiyiniz kimi, qarşıdan gələn 2018-ci il Azərbaycanda Prezident seçkiləri ilidir. Partiyamızın üzvləri bundan sonra da möhtərəm Prezidentimiz və Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin növbəti dəfə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi üçün bilik və bacarıqlarını əsirgəməyərək daha fəal olacaqlar.

Daşkəsən Rayon İcra Hakimiyyəti ilk partiya təşkilatının hesabat-seçki yığıncağında Malik Ələsgərov yenidən ilk partiya təşkilatının sədri, 7 nəfərdən ibarət idarə heyətinin üzvləri, 10 nəfər YAP Daşkəsən rayon təşkilatının IX Konfransına nümayəndə seçilmişdir.

# Laçın rayonu üzrə 2016-cı ildə görülmüş işlərin yekunları və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon yığıncağı keçirildi

10 fevral 2017-ci il tarixdə Ağcabədi rayonu ərazisindəki Taxtakörpü qəsəbəsində Laçın rayonu üzrə 2016-cı ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon yığıncağı keçirildi. İclasdan əvvəl rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri Laçın Rayon İcra Hakimiyyətinin inzibati binası qarşısındakı ulu öndər Heydər Əliyevin büstünü ziyarət edərək önünə tər güllər düzdülər. Rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə davam edən yığıncaqda Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərlinin məruzəsi dinlənildi. Məruzədə rayon rəhbəri əvvəlki illərdə olduğu kimi 2016-cı ildə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı düşünülmüş siyasət sayəsində ölkəmizdə dinamik inkişafın və davamlı sabitliyin qorunub saxlandığı, dövlətimizin beynəlxalq arenada nüfuzunun daha da artdığı bildirilməklə laçınlı məcburi köçkünlərin məskunlaşdıqları ərazilərdə də xeyli abadlıq və quruculuq işləri görüldüyü qeyd olundu. Məruzədə ötən il rayon sakinləri ilə yerlərdə 6139 nəfərin iştirak etdiyi 72 səyyar qəbul keçirildiyi, dinlənilmiş 629 müraciətdən 51 %-nin müsbət həll edildiyi, iş axtaran kimi müraciət edən 360 nəfər rayon sakinindən 63 nəfəri ixtisasına uyğun işlə, 66 nəfər isə işsizlik müavinəti ilə təmin edildiyi, 15 nəfərin özünüməşğulluq proqramına cəlb edilməklə, fiziki şəxslər tərəfindən yaradılan müəssisələrdə daxil olmaqla 205 yeni iş yeri açıldığı bildirildi. Həmçinin köçkünlərin məskunlaşdıqları iki obada modul tipli müasir su təmizləyici qurğu quraşdırıldığı, ərazidə 45 km uzunluğunda çınqıl örtüklü avtomobil yolunun təmir edildiyi, 18 ədəd transformatorun əsaslı, 70 ədəd transformatorun isə cari təmir edilərək 30 min metr elektrik hava xətinin yenisi ilə əvəz edildiyi, iki məktəbin əsaslı, 10 məktəbin isə cari təmiri, habelə üç məktəbdə on ədəd modul tipli sinif otağının quraşdırıldığı bildirildi.



Diqqətə çatdırıldı ki, hesabat dövründə rayonun əhali və fermer təsərrüfatlarında 35 min 666 baş iri buynuzlu, 175 min 797 baş xırda buynuzlu heyvan, 5797 arı ailəsi olmaqla il ərzində rayon üzrə 24053 sentner ət, 205543 sentner süd, 4350 sentner yun və 1 milyon ədəd yumurta istehsal olunmuş, həmçinin cari ilin məhsulu üçün 234 hektar payızlıq buğda, 1398 hektar arpa sahəsi olmaqla 1632 hektar sahədə payız dənlilər səpilmiş, 1518 hektar sahədə biçin aparılmaqla sahələrdən orta məhsuldarlıq 28 sentner olmaqla 4183 ton buğda və arpa məhsulu əldə olunmuş, 2 ha sahədən 6 ton qarğıdalı, 32 ha sahədən 509.3 ton bostan-tərəvəz məhsulları istehsal edilmişdir.

Məruzə ətrafında çıxışlarda köçkünlər ölkə Prezidentinin uğurlu daxili və xarici siyasətini daim dəstəklədiklərini və onlara göstərdiyi davamlı qayğıya görə minnətdar olduqlarını bildirdilər.

Hesabat yığıncağında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul əməkdaşı Ağaəli Əhmədov və Milli Məclisin deputatı Mahir Abbaszadə çıxış etdilər.

Sonda qərar layihəsi oxunaraq yığıncaq iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

# Malıbəyli və Quşçuların işğalından 25 il ötdü

11 fevralın Şuşanın Malıbəyli və Quşçular kəndlərinin işğalı günüdür. Yuxarı Quşçular – Azərbaycan Respublikasının Şuşa rayonunun inzibati ərazi vahidində kənddir. 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib. Yuxarı Quşçular kəndinin tarixi 18-ci yüzillikdə buraya yerləşən əhali ilə başlayır. Bu əhali Tovuz ərazisindən köç edib. Əhalinin mənşəyi Orta Asiyadan köç etmiş Kuşun tayfasındandır. Qarabağ müharibəsinin başlanğıcında Ermənistan qüvvələri Qarabağın ermənilər



yaşayan hissələrini tamamilə ələ keçirdikdən sonra, azərbaycanlılar yaşayan məntəqələrə hücum etməyə başladılar. 1992-ci ilin yanvar ayında ermənilər Xankəndi şəhərindəki Azərbaycan XTPD qüvvələrini sıxışdıraraq çıxardılar. Bundan sonra ermənilər Şuşa şəhərinin işğal edilməsi məqsədilə onu mühasirəyə almağa başladılar. Bu proses zamanı onlar eyni vaxtda, 1992-ci ilin fevralın 12-də Şuşa rayonunun Malıbəyli və Quşçular kəndinə hücum etdilər. Kəndlərin hər ikisi bir günün içində işğal edildi, işğal nəticəsində təxminən 50 nəfər dinc sakin Ermənistan ordusu və muzdlu əsgərləri tərəfindən vəhşicəsinə öldürüldü. Yerdə qalan əhali qaçmaqla canını qurtara bildi, kəndlərin hər ikisi isə tamamilə yandırıldı.

Malıbəyli - 1986-cı il əhalinin siyahıya alınması göstəricilərinə görə kənddəki əhalinin sayı 280 nəfər olub. Onların hamısı milliyyətcə azərbaycanlıdır. 1992-ci il 11 fevral tarixində Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib. Malıbəyli yaşayış məntəqəsi XVIII əsrin axırları və XIX əsrin əvvəllərində sahibkar Malıbəyə məxsus ailələrin Malıbəy kəndindən köçüb, bu ərazidə məskunlaşması nəticəsində yaranıb. Oykonim Malıbəy və -li komponentlərindən düzəldilibdir. Kustar üsulu ilə ip əyirilməsi, xalça toxunulması ilk günlərdən bu kəndin əhalisinin qadınlarının əsas məşğuliyyəti olub. Demək olar ki, bir çox ailələrdə toxucu dəzgah (hana və yer hanası) var idi. Onlar hazırladıqları yun, pambıq iplərdən xalça, kilim, palaz, fərməş, xurcun, şəddə və digər məmulatlar toxumağı bacarırdılar. Palıddan və vələsdən xarratlar müxtəlif məişət əşyaları hazırlayırdılar.

Qab-qacaq, o cümlədən təhnə, tabaq, nehrə, cəhrə, çanaq, qollu tərəzi, daraq (yun daramaq üçün), hana (xalça toxumaq üçün), yer hanası (şəddə, örkən toxumaq üçün) belə əşyalara misal ola bilər. Bu kənd xalçaçılıq məhsullarının istehsalı ilə məşhurdur: çuval, xurcun, məfrəş, yəhər üstü örtük və s. Bunlar məişətdə və kənd – təsərrüfatında geniş istifadə olunurdu. Yaxın zamanlaradək Malıbəylidə naxışlı keçələr də toxunurdu, onun naxışları orta əsrlərdə Orta Asiyanın dekorativ incəsənət əsərlərinin naxışları ilə oxşardır. Malıbəyli kəndi Qarqarçayın sahilində, Şuşa şəhərindən 15 km şimalda, dağətəyi ərazidə yerləşir. Əsasən azərbaycanlılardan ibarətdir. Əhalinin əksəriyyəti hal-hazırda Sabunçu rayonu ərazisində 2007-ci ildə salınmış Ramana-450 qəsəbəsində məskunlaşıb.

# Kürd rəhbərləri Moskvada toplanır

Suriya Kürdistanının lideri – Demokrat İttifaq Partiyansının həmsədri Asiyə Abdulla və Kobani hökumət kantonunun rəhbəri Ənvər Müslim Moskvaya «Yaxın Şərqdə təsir sahələrinin bölüşdürülməsi uğrunda mübarizə: cari vəziyyət və



mümkün nəticəsi» adlı konfransda iştiark etmək üçün gedəcək. FaktXəbər-in verdiyi məlumata görə, bu barədə Kürdlərin Federal Milli Muxtariyyəti Şurasının sədri Fərhad Patiyev RİA Novosti-yə bildirib.

Konfrans fevralın 15-də Moskvada keçiriləcək.Tədbirdə Türkiyə, İraq və İrandan olan kürdlər də iştirak edəcək. Türkiyə Kürdüstanı Diyarbəkirin sabiq meri və HDP-nin Parlamentdəki təmsilçisi Osman Baydəmir tərəfindən təmsil olunacaq.

Kofnransda iştirakdan əlavə, kürd siyasətçilərin səfər proqramına rusiyalı həmkarları ilə görüş və KİV üçün mətbuat konfransı daxil edilib. **dia.az**

# İraqda İŞİD terror qruplaşmasında daxili ixtilaflar güclənib

İraqda İŞİD terror qruplaşmasında daxili ixtilaflar güclənib

İraqın təhlükəsizlik dairələri bazar günü ifşa ediblər ki, İŞİD terror qruplaşması daxili boşluqla üzləşib və bu terror qruplaşmasının bir qrup ünsürü öz başçılarının göstərişlərindən boyun qaçırır.

İraqın əl-Fərat Nyuz xəbər agentliyinin məlumatına görə, Mosulda İŞİD terror qruplaşmasının başçılarından biri Əbu Abdulla Əş-Şami İŞİD başçısı Əbubək əl-Bağdadiyə biətini ləğv və elan edib: Qüdrəti və hakimiyyətini itirən şəxsə biət batildir.



Bu arada əl-Həşdüş-Şəabi qüvvələrinin komandanlarından Əbu Zeynəb əl-Xəzəli bildirib: Bu qüvvələr İŞİD ünsürlərinin Mosulun bəzi bölgələrində quraşdırdıqları lazer bombaları zərərsizləşdiriblər.

İraqın şimalında Neynəva vilayətinin mərkəzi olan Mosulun İŞİD terror qruplaşmasından azad edilməsi əməliyyatı 2016-cı il 17 oktyabrda İraq baş naziri Heydər əl-İbadinin göstərişi ilə başlanıb. İraqın ikinci böyük şəhəri Mosul İŞİD terror qruplaşmasının sonuncu gizləndiyi məkandır. Bu terror qruplaşması 2014-cü ildən Mosula nəzarəti ələ keçirib. **azeri.sahartv.ir**

# Əhəd Abıyev: “Təklif edirəm, bütün icra başçıları Cocuq Mərcanlıya getsinlər”

## *“Cənab prezident bir yandan işğaldakı torpaqların azad edilməsi istiqamətində gərgin iş aparır, digər tərəfdən isə əsgər və şəhid ailələrini diqqətdən kənarda saxlamır”*

***Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Əhəd Abıyevin “Yeni Müsavat” qəzetinə müsahibəsini təqdim edirik.***

**- Əhəd müəllim, son günlər Azərbaycanla bağlı olduqca maraqlı proseslər gedir. Onlardan biri də blogger Aleksandr Lapşinin ölkəmizə eksdradisiya edilməsidir.**

- Müsahibənin lap əvvəlində sizdən bir xahiş edəcəm.

**- Buyurun. Nə xahişdi?**

- Mənim sözlərimi olduğu kimi verin. Çünki bəzi qəzetlər, saytlar, fikrimizi qərəzli şəkildə və bilərəkdən təhrif edirlər.

**- Narahat olmayın. Nə danışsanız, hamısını verəcəyik.**

- Aleksandr Lapşinin Bakıya gətirilməsi Azərbaycanın bir dövlət olaraq nüfuzunu və gücünü göstərən hadisədir. Həmçinin ölkəmizin başçısı cənab İlham Əliyevin ölkəsi və xalqı üçün necə bir fədakarlıq etməsinin, prinsipial mövqe tutmasının sübutudur. Lapşin Azərbaycanın qanunlarını pozaraq, işğal altında olan ərazilərə səfər edib, Azərbaycan dövləti və azərbaycanlılar barədə qərəzli, təhqiramiz məqalələr yazmışdı.

Budur, artıq o, Azərbaycan Respublikasının qanunları qarşısında cavab verir. Bu, bizimlə bağlı yanlış mövqe tutan hər bir kəsə dərs olmalıdır. Bu şərəfsizlər anlasınlar ki, Azərbaycanın qanunlarını pozub sonra rahat gəzib-dolaşmaq mümkün olmayacaq.

**- Bəziləri Lapşinin Bakıya əl-qolu bağlı gətirilməsinə irad bildirirlər.**

- Bəli, yaramazlar həmişə olub, var və olacaq. İndi neynəyək, ölkəmizin və xalqımızın ünvanına təhqiramiz ifadələr işlətmiş, işğal altındakı torpaqlarımıza qanunsuz səfərlər etmiş birini Azərbaycan dövləti cəzalandırırsa, özü də yerli və beynəlxalq qanunlara əsasən, bundan bəziləri niyə narahat olur?! İnanın, Lapşin gətirilməsəydi, onlar yazacaqdılar ki, hakimiyyətin bir siyasi oyunbaza gücü çatmadı. Bu, diplomatik bir qələbədi. Lapşinin həbsi və ölkəmizə verilməsi Azərbaycan-Belarus dostluğu və dövlətimizin beynəlxalq aləmdəki gücünü göstərdi. Bir daha da bütün dünyaya bəyan edilmiş oldu ki, möhtərəm cənab Ali Baş Komandanın apardığı xarici siyasət yüksək nəticələr verməkdədir. Qarabağa, böyük qələbələrə gedən yol bu cür başlayır. Azərbaycan prezidenti hörmətli İlham Əliyevin apardığı bu işlər həm daxili, həm xarici düşmənlərimizin yuxusunu qaçırıb. Onlar Azərbaycanın qüdrətli dövlət, güclü ordusunun olmasını həzm edə bilmədikləri üçün özlərinin çirkin fəaliyyətdən əl çəkmirlər. Onlar da xaricdə fəaliyyət göstərir.

**- Bəzən daxildə düşmən axtarmaq, sizcə, yanlış deyilmi?**

- Düzdür, bəziləri dövlətə, iqtidara qarşı düşmənçilik edirlər. Bilirsiniz ki, Azərbaycan prezidenti olduqca humanist insandır. İqtidara qarşı qərəzli münasibət bəsləyən, xarici dairələrin sifarişi ilə ölkəmiz haqda olmazın böhtanlar danışan, qərəzli məqalələr yazan adamları cənab prezident zaman-zaman əfv edib, onlara yeni bir şans verib ki, səhvlərini düzəltsinlər, bir daha çaşmasınlar. Amma onların içində səhvini anlayıb haqq yola qayıdanlar da olub. Lakin təəssüf ki, dövlətə və xalqımıza qarşı düşmənçilik apararaq bu yanlış yoldan dönməyənlər də var. Bələlərinin pulu xarici erməni



dəyirmanına su tökən xarici fondlardan gəlir.

**- Əhəd müəllim, yeri gəlmişkən, Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndi ilə bağlı aparılan işlərlə maraqlanırsınızmı?**

- Əlbəttə. Hər gün, hər saat o mövzu diqqətimizdədi. Möhtərəm prezidentin Qarabağın işğaldan azad edilməsi ilə bağlı gördüyü işlər göz qabağındadır. İstər diplomatik müstəvidə olsun, istər siyasi, istərsə də hərbi, Ali Baş komandanımız gecə-gündüz dayanmadan çalışır. Müharibə təkcə cəbhə xəttində, səngərlərdə aparılmır. Bu gerçəyi hər kəs bilməlidir. Cənab İlham Əliyevin siyasi-diplomatik səngərdə, cəbhədə gördüyü işlərin bəhrəsini xalqımız yaxın zamanlarda görəcək. Cocuq Mərcanlı böyük qələbənin başlanğıc mərhələsidir. Möhtərəm prezidentimiz bizi böyük qələbəyə, doğma yurda qayıdışa - Qarabağın işğaldan azad edilməsinə doğru aparır.

**- Son vaxtlar ayrı-ayrı təşkilatlar, Cocuq Mərcanlıya gedirlər. Bu günlərdə ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələri də ora gedəcəklər. Bu səfərlərin təşkilini necə qiymətləndirirsiz?**

**“Kim çaşırsa, aşır, yolundan çıxırsa, layiqli cəzasını alır”**

- Açığı, bu mövzuya toxunacaqdım, məni qabaqladınız. Azərbaycan üçün hazırda ən həssas və vacib mövzulardan biri də Cocuq Mərcanlıya dönüşlə bağlıdı. Bu kənd bizim üçün Qarabağa, işğal altındakı torpaqlarımıza açılan qayıdış qapısıdı. Ona görə də hər bizimiz Cocuq Mərcanlının bərpası istiqamətində təşəbbüskar olmalıyıq. Şəxsən mən təklif edirəm ki, bütün rayon icra hakimiyyəti başçıları Prezident Administrasiyasının razılığı əsasında qruplar halında Cocuq Mərcanlıya səfər etsinlər.

Xalqın, yerli əhalinin içinə getmək, onlarla çiyin-çiyinə dayanmaq, probleminə yaxından bələd olmaq lazımdı. Bu, Ulu Öndərimiz Heydər Əliyevin yoludur. Bu, bizim əziz prezidentimiz İlham Əliyevin siyasətidir. Ölkəmizdə prezidentin rəhbərliyi ilə islahatların yeni mərhələsi başlayıb, görüləcək işlərlə bağlı tapşırıqlar verib.

Həmçinin cənab prezident bu günlərdə nəşi düşməndən alınaraq böyük təmtəraqla dəfn edilən şəhid Çingiz Qurbanovun ailəsini qəbul etdi. Çingizin valideynləri ilə xeyli söhbət etdi, ona ölümündən sonra milli qəhrəman adı verdi. Cənab prezident “Qızıl ulduz”u şəhidin atası Salman Qurbanova təqdim etdi. Bu mükafat təkcə Çingiz Qurbanova deyil, Azərbaycan torpaqları uğrunda canından keçən bütün şəhidlərə verilən qiymətdir. Bunları xalq görür, ki, cənab prezident əsgər və şəhid ailələrinə sahib çıxır, onlara diqqət və qayğı göstərir. Biz məmurlar da Ali Baş Komandanın bu davranışından nümunə götürərək yerlərdə onun bu uğurlu siyasətini davam etdiririk.

**- Əhəd müəllim, son vaxtlar sizinlə bağlı bəzi saytlarda yazılar gedir. Gah yazırlar, müşavirədən sonra əhvalınız pisləşib, gah da reket mətbuatla adınızı hallandırırlar.**

- Bunlar hamısı cəfəngiyatdır. Sağlam jurnalistika heç vaxt belə yazmaz. Mənim mətbuata münasibətim həmişə normal olub. Jurnalistlərlə arama heç vaxt sədd çəkməmişəm. Nə zaman müraciət ediblər, onlara müsahibə vermişəm. Baxın, indi siz zəng etmisiniz, verdiyiniz sualların hamısına cavab verirəm. Amma bəzi saytlar var ki, barəmdə ağılarına gələn mənim demədiyim cəfəngiyat şeylər yazırlar. Mən cənab prezidentin rəhbərliyi ilə keçirilən müşavirədən çıxarkən mobil telefonumu açdım, qardaşımın rəhmətə getməsi xəbərini aldım. Qardaşının ölüm xəbərini alan insanın əhvalı təbii ki, pisləşər. Bu xəbər yayılandan sonra bəzi qəzetlər mənə zəng vurdular, vəziyyəti izah etdim. Çox sağ olsunlar ki, doğru-düzgün xəbər hazırlayıb sayta və qəzetə verdilər, hər kəs də həqiqəti bildi.

**“Lapşinin Bakıya gətirilməsi dövlətimizin və Azərbaycan prezidentinin qüdrətinin göstəricisidir”**

Qaldı ki, barəmdə yazılan digər iftiralara. Bilirsiniz, istər deputat kimi fəaliyyət göstərdiyim vaxtlarda, istərsə də icra başçısı vəzifəsini icra etdiyim bu 6 illik müddətdə ən çox reket mətbuatdan əziyyət çəkən məmur olmuşam. Belə olduqda hansı məntiqlə mən reketlərə himayədarlıq edə bilərəm?! Mən normal, əxlaqlı, düzü düz, əyrini əyri yazan jurnalistlərə böyük hörmət bəsləyirəm. Amma reket mətbuat... Bu, mənlik iş deyil. Həmişə də onlara iradımı bildirmişəm.

**- Bu yazılardan sonra müəyyən qeyri-ciddi şayiələr yayırlar. Və Prezident Administrasiyası adından danışırlar.**

- Bilirsiniz, Prezident Administrasiyası rəhbərliyi və orada işləyənlər təcrübəli insanlardan ibarətdir. Onlar hansı saytın hansı məqsədlə yazdığını gözəl bilirlər. Həmçinin təyin etdikləri kadrları da çox yaxşı tanıyırlar. İstər cənab prezident, istərsə də onun komandası yerlərdəki kadrlarına hansısa reket saytın, qəzetin şantajı, böhtançı, qərəzli yazısı ilə deyil, sırf o kadrların fəaliyyəti ilə qiymət verirlər. Biz bu iqtidara, dövlətə, xalqa boş-boş sözlə yox, fəaliyyətimizlə, həmçinin sədaqətimizlə xidmət göstəririk. Kim çaşırsa, aşır, yolundan çıxırsa, layiqli cəzasını alır.

**- Əhəd müəllim, bu gün ölkədə nümunəvi rayonlar, şəhərlər, bölgələr varmı və ilk sırada hansıların adlarını çəkərdiniz?**

**“Bu gün Naxçıvan özünün inkişaf dövrünün zirvəsini yaşayır”**

- Mən müstəqil Azərbaycanda 15 il deputat, 6 ildir də icra başçısı olmuş şəxs kimi deyə bilərəm ki, Azərbaycan özü dünya üçün bir nümunəvi hüquqi-demokratik dövlətdir. Ölkəmizdə sabitlik, əmin-amanlıq, terrorsuz bir mühit var. Bunlara görə ölkə başçısı, cənab İlham Əliyevə minnətdar olmalıyıq. Həmçinin hüquq-mühafizə orqanları etibarlı əllərdədi. Vahid rəhbərlik var.

Qaldı ki sizin sualınıza... Birmənalı olaraq bildirirəm ki, bu gün Naxçıvan Muxtar Respublikası hazırda nəinki Azərbaycan üçün, region ölkələri üçün bir nümunəvi modeldi. Cənab prezidentin rəhbərliyi ilə hörmətli Vasif Talıbov hazırda Naxçıvanda böyük quruculuq-abadlıq işləri aparır. Bütün sahələr üzrə gözəl işlər görülüb və görülməkdədir.

Ora gələn turistlər, diplomatik qonaqlar, həmçinin qonşu dövlətlər olan İran və Türkiyə vətəndaşları bu inkişafı, yeniliyi görüb Azərbaycanla bağlı təsəvvürləri daha da müsbətə doğru dəyişir. Xatırladım ki, Naxçıvan yarımblokada şəraitindədir. Lakin buna baxmayaraq Muxtar Respublika hazırda özünün inkişafının zirvəsini yaşayır. Bütün dünya dövlətləri ilə siyasi və iqtisadi əlaqələr qurulub. Məncə, bütün bunlar sizin sualınıza ən yaxşı cavabdır.

**E.MƏMMƏDƏLİYEV**

# 29 yaşın mübarək! Ey vətən oğlu!!!



Ədalət Bədirxanov

7 Fevral Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ad günüdür.

**"QARABAĞNAMƏ" kitabından-səh-95**

Ata can, izin ver, izin ver mənə,
Döyüşə gedirəm vətən eşqinə.
Bəlkə şəhid oldum, qınama məni,
Hazıram gedirəm, düşmən üstünə.
Əsgərəm, bu torpaq mənim vətənim,
Əsgərlik, xidməti borcumdur mənim.
Bu, odlar diyarı Azərbaycanı,
Qoruyub saxlamaq borcumdur mənim.
Özümün çoxdandır, bir niyyətim var,
Səlnamə yazmağa, bir silahım var.
Bu, mənim ürəyim, vətən eşqimdir,
Sizi xar etmərəm, cəsarətim var.
Ana can, haqqını halal et mənə,
Adımı doğruldub, dönəcəm yenə.
Girirəm döyüşə, tam arxayın ol,
Oğlun Mübarizəm söz verdim sənə.

*11.08.2012.*

**Əfsanəvi qəhrəman Mübariz İbrahimov**

***"Canım atam və anam, məndən sarı darıxmayın, cənnətdə görüşəcəyik"***

Bu gün Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günüdür. Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. 1994-cü ildə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olaraq 2005-ci ildə orada orta təhsilini başa vurub.

Həmin il həqiqi hərbi xidmətə çağrılıb. Əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub.

Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Bir müddət sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət etməyə başlayıb.

Təsdiq edilməmiş versiyalara görə 19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Ermənistan Silahlı Qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşur. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adının (ölümündən sonra) verilməsi barədə sərəncam imzalayıb. Şəhid gizirə bu ad Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə verilib. Prezidentin başqa bir sərəncamı ilə Milli Qəhrəman Mübariz Ağakərim oğlu İbrahimovun xatirəsini əbədiləşdirmək məqsədilə aşağıdakılar qərara alınmışdır:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti Biləsuvar rayonunun orta məktəblərindən birinə Mübariz İbrahimovun adının verilməsini təmin etsin.

2. Biləsuvar Rayon İcra Hakimiyyəti Biləsuvar rayonunda küçələrdən birinə Mübariz İbrahimovun adının verilməsini təmin etsin.

"Azərbaycanın Milli Qəhrəmanı M.A.İbrahimovun xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyul



tarixli 1040 nömrəli Sərəncamının 1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alınmışdır: Biləsuvar Rayon İcra Hakimiyyətinin Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq, Biləsuvar şəhərindəki lisey-məktəb kompleksinə Azərbaycanın Milli Qəhrəmanı Mübariz Ağakərim oğlu İbrahimovun adı verilsin.

"Palmali" Şirkətlər Qrupunun prezidenti Mübariz Mənsimov tankerlərindən birinə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adını verib. Mübariz İbrahimovun adını daşıyan gəmi 2010-cu ilin oktyabr ayının 15-də Türkiyədə "Beşiktaş" gəmiqayırma zavodundan suya endirilib. Türkiyədə suya endirilmiş bu gəmi hazırda Milli Qəhrəman Mübariz İbrahimovun adını dünya sularında tanıdır.

Bundan başqa Milli Qəhrəman Çingiz Mustafayev Fondu və "ANS" Şirkətlər Qrupu Azərbaycanın ərazi bütövlüyü uğrunda göstərdiyi şəxsi fədakarlığa, Döyüş tapşırığını yerinə yetirərkən nümayiş etdirdiyi yüksək peşəkarlığa, Azərbaycan xalqının döyüş ruhunun sarsılmazlığını sübut etdiyinə, Qəhrəmancasına şəhid olub şəxsi nümunəsi ilə cəmiyyətdə vətənpərvərlik ruhunu daha da möhkəmləndirdiyinə, Azərbaycan döyüşçüsünün Qarabağın işğalı ilə heç vaxt barışmayacağını bəyan edən dövlətimizin iradəsini nəyin bahasına olursa-olsun yerinə yetirməyə hazır olduğunu sübut etdiyinə görə, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu "2010-cu ilin adamı" elan edib.

2013-cü ilin mart ayında Türkiyənin ictimai kanalı TRT-də nümayiş olunan və "Sakarya Fırat" serialında Milli qəhrəmanımız şücaətindən bəhs edilmişdi.

**Şəhid Mübariz İbrahimovun ailəsinə son məktubu**

"Canım, atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam – ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

# Millət vəkili Nuru Paşanı sərt tənqid etdi: "Erməniləri azərbaycanlıların üstünə salan türklər olub"

"Ermənistan öz sərhədləri çərçivəsində BMT-yə üzv olub. Heç kim icazə verməz ki, biz İrəvanı geri alaq. Burada ayrı bir məsələ var. Biz bunu mütləq dərsliklərə salmalıyıq. Uşaqlarımız, gənclərimiz bilsinlər ki, "erməni qara yarası"nı Azərbaycanın bədəninə Osmanlı imperatorluğu salıb. Türkiyə isə Osmanlı imperiyasının cinayətlərinə görə, cavab verməK fikrində deyil".



Bunu Azərbaycan Sosial Demokrat Partiyasının sədri, millət vəkili Araz Əlizadə modern.az-a müsahibəsində deputat həmkarı Yaqub Mahmudovun "Azərbaycan İrəvan üzərində varislik hüququnu bərpa etməlidir" təklifinə münasibət bildirərkən deyib.

Araz Əlizadə bildirib ki, Azərbaycan torpaqlarında erməni dövlətinin yaranması üçün şəraiti məhz Osmanlı imperiyası yaradıb: "1915-ci ildən sonra Osmanlılar öz paxırlarını ört-basdır etmək üçün Azərbaycan ərazilərində Ermənistan dövlətinin yaranmasına şərait yaratdı. Halbuki Azərbaycan o zaman bütün ümidlərini Osmanlıya bağlamışdı. Amma Osmanlı imperiyası Azərbaycanın acizliyini görüb, ingilislərin xoşuna gəlmək üçün 9 min kvadrat kilometr ərazini Ermənistana verdi. Sazişdə yazılmışdı ki, daha ermənilər bir qarış torpağa da iddia etməyəcəklər".

Araz Əlizadə türk komandanı Nur Paşanı da sərt tənqidə məruz qoyub: "Erməniləri bizim üstümüzə salan elə Osmanlı idi. Sonradan isə xilas etdilər. Bu faktı unutmayın. Nuru Paşa Gəncədə oturmuşdu və ona qızıl gələnə qədər yerindən tərpənmirdi.

Fazil Mustafanın bu haqda elmi məqaləsi var. Nuru Paşa oturmuşdu və tələb edirdi ki, ona qızıl gəlməlidir, əks halda ermənilərə qarşı hücuma keçməyəcək. Hacı Zeynalabdin Tağıyev Nuru Paşaya faytonla qızılı çatdırandan sonra o, Gəncədən Bakıya doğru hərəkət etdi".

***Karabakhmedia.az***



***Hacı Paşa Ağakürdoğlu***

## Əkinçi Şir

İllər idi qoca Şir əkinçiydi meşədə
Bütün meşə bilirdi sənətkardı peşədə
Növbə ilə əkirdi hər bitkini yerində
Məxsus adları vardı hər sahənin yerin də
Yazlıq taxılın yerin payızına şum edir
Əkinçilik işləri növbə ilə düz gedir
Gənc Çaqqallar Tülkülər irad etdilər nələr
Əkinçilik işini ancaq komputer bilər
Əkinçilik işindən qoca kənar olmalı
Bu qocanın yerini biz cavanlar almalı
Cavanlar belə etdi Şirsə bu işdən getdi
Əkinin bərəkəti o gün Şirilə getdi
Gənclərsə özlərinə böyük önəm verdilər
Təsərrüfat işlərin komputerlə gördülər
Komputerlə şum edib komputerlə əkdilər
Bərəkətə tapanı komputerlə çəkdilər
Əkin ili qoydular gənclər bu ilin adın
Dedilər ki, bəhərdən yeyən biləcək dadın
Görünməz möcüzələr düzüldü dalba-dala
Komputer beyin lazım o dözsün möcüz hala
Taxıl əkilən yerdə gördülər qanqal bitib
Komputer göstərdi ki, Arpa sahədən itib
Gənclərin ideyası meşəni viran etdi
Heyvanlarsa acından başqa meşəyə getdi.

## Teyyub Qurbana

Sədaqət rəmzisən ay Teyyub qağa
Ömürdə yüz nədi qoy dönsün dağa.
Ehtibar canında həmdə qanında
Vüqarlı olmusan hər bir anında.

Böyük yaranmısan tədqiqin çətin
Səni tanıyandan tanıdım mətin.
Haqqı axtarsaqda tapıla bilmir,
Dövran belə gəlib, gələnsə gəlmir.

Dostluğa ehtiram ümmandı səndə
Dostlar arayansan dumanda çəndə.
Vicdan borcu sandın dosta xidməti,
Hədiyyə eylədin hər cür zəhməti.

Ümid təvəkkülə deyib durmuşuq
Xəyalən bir adil zaman qurmuşuq.
Haq tək adı olan, bir qalamız var,
İnşallah o, özü olacaqdır yar.

# ABŞ Suriyadakı kürd müxalifətinə zirehli texnikalar göndərib

Silahlı müxalifət qüvvələri alyansı – "Suriya demokratik qüvvələri" bəyan edib ki, Donald Tramp vəzifəsinin icrasına başlayandan sonra ABŞ-ın rəhbərliyi altında antiterror koalisiyası Suriyadakı müttəfiqlərinə dəstəyi artırıb və ilk dəfə olaraq onlara zirehli texnikalar tədarük edib. Müxalifət nümayəndəsi Təlal Selo "Reuters" agentliyinə bildirib ki, zirehli texnika və zirehli nəqliyyatlar 4-5 gün əvvəl çatdırılıb. Onun sözlərinə görə, texnikanın sayı az olsa da, bu, yeni dəstəyi göstərir: "Biz bundan əvvəl belə dəstək almamışıq. Buna qədər, əsasən, yüngül silahlar və döyüş sursatları göndəriblər". Qeyd edək ki, alyans, əsasən, kürd bölmələrindən ibarətdir. ***abzas.net***



# Laçın və Bayram




Laçın və Bayram. Bunun hər ikisi bizim üçün o qədər əziz və əvəzolunmazdır ki, bunları biri-birindən ayırmaq heç cür mümkün deyil.

Laçın dedikdə Bayramı, Bayram dedikdə Laçını ayrı düşünə bilmərik.

- Laçın bizim üçün dünyaya göz açdığımız, üzərində ayaq açıb yeridiyimiz, yüyürdüyümüz əziz və doğma diyar, bir sözlə Vətən!

Bayram isə bu dünyaya göz açdığım ailənin bir üzvü, əzizimiz və doğmamız, bir sözlə Qardaş!

Bu iki varlığa ayrı-ayrı nəzər salsaq görərik ki, doğrudan da bizim itirdiyimiz bu varlıqlar bizim güvən və qürur yerimizdir.

Laçın rayonunun Minkənd kəndində anadan oldum. Sadə və kəndçi ailəsində. Ailəmiz nə qədər böyük olsa da, yenə də qayğısız və firavan günlər keçirdiyimiz hələ də mənim xatirimdən çıxmır. Çünki ən doğma Vətən bunun bərabərində də sevdiyin insanların əhatəsində yaşamağın nə qədər xoşbəxt anlar olduğu hələ də bizi həyata bağlayan səbəblərdən ən başlıcasıdır.

Bu sevdiyim insanlar içərisində Bayramın da olmasının olduğu günlərin qədir-qiyməti heç nə ilə əvəz oluna bilməz. Ən pisi və narahatedicisi də odur ki, biz bu varlıqların ikisini də eyni vaxtda itirdik. Elə bununla da əzablı və keşməkeşli günlər başladı.

Təsəvvür edin ki, bir gün hər şeyimiz olması, sabahısı isə heç nəyimizin olmadığını gördükcə insan özü-özündən küssünmü, incisinmi, nə edəcəyini belə bilmirdi. Çox çətin günlər keçirdik, bunun da üstünə qardaş itkisi, həm də Bayram kimi bir oğul, bir qardaş. Mən Bayramın qəhrəmanlığı və şücayəti barədə nəsə demək istəmirəm, çünki mən nəsə desəm, bəlkə də düzgün ifadə edə bilmərəm.

Bu qədər adı ilə öyünüb qürur duyduğumuz bir igid qardaşdan necə və nə cür danışacağımı belə bilmirəm.

Bayramın bu az yaşına baxmayaraq, onun bu qədər tanıyanların xətrini istəyən və dostluq etmiş insanları gördükcə onlarla həmsöhbət olduqca, insan özü-özünə düşünmək məcburiyyətində qalır ki, bu az ömürdə bu qədər qazanılmış hörmət, etibarı görəsən indiyə qədər yaşasaydı, hələ nələr ola biləcəkdi.

Yaşadığımız illərdə bunun fərqinə varmasaq da, indi daha yaxşı görə bilirik, bizim qardaşımız necə mərd, qorxmaz, sözünə düzgün, özünə hörmət edən, qeyrətli və namuslu olduğunun bir nümunəsidir. Çünki mənə belə gəlir ki, bu sadaladıqlarımdan hansısa birinin olmaması mümkün olmazdı ki, belə diqqətə layiq birisi olsun.

Bu günə kimi istər sağlığında, istərsə də şəhidlik zirvəsinə ucalandan sonra da bizim fəxrimiz olub və olacaq. Axı biz Laçını itirdiyimizdə necə əzablı-əziyyətli günlər keçirtdiksə, Bayramı itirdiyimizdə də elə o qədər küskün və kədərli olduğumuzu heç cür gizlədə bilməzdik.

Ən əsas təsəllimiz və qürurumuz odur ki, Bayram bizim və bizi istəyənlərin hər birini başı uca və alnı açıq yaşamağımızın səbəbkarı oldu.

Təsəvvür edin ki, böyük ailə ilə Laçını və Bayramı itirdiyimiz ilk günlərdə yaşamağımızın belə fərqinə varmırdıq. Çünki belə böyük dərdin öhdəsindən gəlmək çox çətin və üzücü anların bir acı xatirəsidi.

Evimiz olduğu halda evsiz-eşiksiz, kimlərinsə minnətində yaşamaq. Düzdür, bizə minnətdə olduğumuzu nə qədər hiss etdirməsələr də, yenə də insan öz içində keçirtdiklərini kimsəyə olduğu kimi danışmağı mümkünsüzünüdü. Bunun da üstünə qardaş itkisi, ən başlıcası da Vətənin təəssüfini, torpaq qeyrətini çəkən bir qardaş. Bu çətin günlərdə bizim bu cür yetişməyimizdə öz valideynlərimizə çox minnətdarlığımızı bildirməliyik ki, bizi bu çətin anlarda bu cür tərbiyə ediblər.

Atamız bizim üçün nə qədər çox əziyyət çəkdiyini desən də, anamızın əziyyətini xüsusi qeyd etməliyik ki, daha da düzgün və yerinə düşmüş olsun. Laçını itirdiyimizdə geriyə qaytarılacağını ümidlə gözləyirik. Çünki Bayramın dediyi o son söz "Heyf səndən, ay Laçın" kəlməsi onun dediyi kimi təəssüf hissi ilə müşahidə olunmamasını.

Heç olmasa dünyasını dəyişən, şəhidlik və ölməzlik zirvəsinə ucalan şəhidlərin, o cümlədən də Bayramın, o narahat ruhların çəkdiyi narahatçılıqların son olsun.

Düzdür, biz bu dünyada Bayram qardaşımıza qovuşa bilməsək də, bunu bilirik, heç olmasa Laçına, Minkəndə qovuşaq. Həmçinin də bütün işğal olmuş torpaqlarımız özümüzün olduğu kimi yenə də bizim olsun. İnşallah.

Laçının işğalından bu qədər illər keçsə də, hələ də bu torpaqlara qayıda bilmək arzusu bizi yaşadır və qurub-yaratmağa həvəsləndirir. Bizi narahat edən məsələlərdən biri də odur ki, gələcək nəsillər Laçınsız yaşamasınlar.

Azərbaycan torpağının bütövlüyü bizim üçün həyatımızdan daha da önəmlidir.

Laçın rayon Minkənd kənd orta məktəbinin Bayram Məhəmməd oğlu Məmmədovun adını daşıması və ölkə prezidenti tərəfindən "Vətən uğrunda" medalı ilə təltif edilməsi də bizim üçün bir təsəlli və gələcək nəsillərin də Bayram Məmmədovu necə igid, qəhrəman olmasını bir şahidi olub və hər zaman bu adla qürurlanacaqlarına əminəm.

Bizə bu cür qayğı və diqqət ayırmağınıza görə sizlərə də hörmət və ehtiramımızı bildiririk.

***Namizəli Məhəmməd oğlu Məmmədov, şəhid qardaşı***



*(Şəhid Bayram Məmmədovun atası Məhəmməd Mürsəloğlu və Rauf İlyasoğlu)*




## Bayram ən uca zirvələrdədir

***Şəhid, qəhrəman Bayram Məhəmməd Oğlu Məmmədovun əziz xatirəsinə***

Minkənd igidlərin oylaq yeridir,
Qədim diyarımın yaylaq yeridir.

Laçın dağlarımın zirvəsindədir,
Vətənimin gözəl sinəsindədir.

Yadıma salıram xoşbəxt anları,
Var qoçaq, işgüzar, mərd insanları.

El-oba firavan yaşayırdılar,
Nənələr nəvəsin oxşayırdılar.

Birdən qara bulud bürüdü kəndi,
Həkəri coşaraq aşırdı bəndi.

Daşnak ermənilər hücum etdilər,
Qanqal kimi meşələrdə bitdilər.

Kəndin oğulları silahlandılar,
Şəhid olanları bir an andılar.

Bayram ön cərgədə mətin gedirdi,
Polis alayında xidmət edirdi.

Bayram döyüşürdü sirtək, inamla,
Yurdu qoruyurdu necə ilhamla.

Bayram düşmənlərə sinə gətirdi,
Erməni quldurun hey gəbərdirdi.

Təpədən dirnağa silahlı düşmən,
Şəhid qanı ilə sulandı çəmən.

Namərd ermənilər qəfil vurdular,
İgid oğullara necə qıydılar?

Ey şəhid atası, Məhəmməd dayı,
Uca tut başını, yox şəhid tayı.

Dahi rəhbər ilə görüşən zaman,
Kövrəldin qürurdan bilirəm yaman.

Şəhid ataları ağlamaz inan,
Anan doğub səni bil ki, qəhrəman.

Vətənin yolunda canından keçən,
Xoşbəxtdir o cənnət yolunu seçən.

Şəhidlər ucalır ali zirvəyə,
Çox fikir edirsən, ay ana, bəs niyə?

